İslamın Fəziləti

SƏİD ƏLƏKBƏROV

# İslamda evlilik

# İSLAMDA EVLİLİK

**Rum, 30/21**

“Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!”

**Kitabın adı:** **İslamda evlilik**

**Toplayan:** **Səid Ələkbərov**

**Redaktə edən:** **Xumar Ərşadlı**

**Tarix:** **29. 03. 2022**

# İslamda evlilik

**Bismilləhir Rahmənir Rahim**

**Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Şəhadət edirəm ki, Allahdan başqa haqq məbud yoxdur. O, təkdir və heç bir şəriki yoxdur. Şəhadət edirəm ki, Muhəmməd Allahın Elçisidir. Allahın salavatı və salamı Peyğəmbərimizə, onun ailəsinə, səhabələrinə və gözəl şəkildə onların yolunu təqib edənlərə olsun.**

Ailə həyatı qurmaq həyatın nizamlarından biridir. Allahın Elçisi də bu xüsusda ailə həyatı quranları təbrik edərək onlar üçün dua etmişdir. Əbu Hureyranın (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ evlənən bir insanı təbrik edən zaman deyərdi: ***“Allah mübarək eləsin, sənin üçün bərəkətli etsin və hər ikinizi xeyir üzərində birləşdirsin.”***[1]

İslam dini daim ailə qurmağın tərəfdarı olmuş, istər kişiləri, istərsə də qadınları tərki-dünyalıqdan çəkindirmişdir. Ailə qurmaq peyğəmbərlərin də sünnəsidir. Bu haqda Uca Allah buyurur:

وَلَقَدْ أَرْسَلْنَا رُسُلًا مِّن قَبْلِكَ وَجَعَلْنَا لَهُمْ أَزْوَٰجًا وَذُرِّيَّةً

**“Biz səndən əvvəl də elçilər göndərdik və onlara zövcələr və övladlar verdik.”**[2]

Allah Təala peyğəmbərlər haqqında buyurmuşdur:

أُو۟لَٰٓئِكَ ٱلَّذِينَ هَدَى ٱللَّهُ ۖ فَبِهُدَىٰهُمُ ٱقْتَدِهْ

[1] Əbu Davud, 2130. Tirmizi, 1091. İbn Macə, 1905. Albani “səhih” demişdir.
[2] “Rad”, 38

**"Onlar (peyğəmbərlər) Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl."**[3]

Allah Rəsulu ﷺ buyurmuşdur: ***"Dörd şey peyğəmbərlərin sünnəsindəndir: həyalı olmaq, ətirlənmək, misvakdan istifadə etmək və evlənmək."***[4]

Yəni, ailə həyatı qurmaq peyğəmbərlərin yolundan bir yoldur.

Uca Allah qullarına bir çox nemətlər bəxş etmişdir. O nemətlərdən ən əsası İslam dinini qəbul etmək və xüsusilə tövhid etiqadında olmaqdır. Ailə həyatı qurmaq da bu nemətlərdən biridir. Allah Təala ailə həyatı qurmağı həyatın nizamlarından biri olaraq müəyyən etmişdir. Necə ki O, bu haqda buyurur:

وَمِنْ ءَايَٰتِهِۦٓ أَنْ خَلَقَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَٰجًا لِّتَسْكُنُوٓا۟ إِلَيْهَا وَجَعَلَ بَيْنَكُم مَّوَدَّةً وَرَحْمَةً ۚ إِنَّ فِى ذَٰلِكَ لَءَايَٰتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ

**"Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır."**[5]

Allah Təala başqa bir ayədə buyurur:

وَٱللَّهُ جَعَلَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَٰجًا وَجَعَلَ لَكُم مِّنْ أَزْوَٰجِكُم بَنِينَ وَحَفَدَةً وَرَزَقَكُم مِّنَ ٱلطَّيِّبَٰتِ

**"Allah sizin üçün özünüzdən zövcələr yaratdı, zövcələrinizdən də sizin üçün övladlar və nəvələr yaratdı və sizə pak ruzilər verdi."**[6]

---

[3] "Ənam", 90
[4] Əbu Əyyub əl-Ənsari rəvayət etmişdir. Tirmizi, 1080. Tirmizi, Munziri, İbn Həcər "həsən" demişlər. Şeyx əl-Albani "zəif" dmişdir.
[5] "Rum", 21
[6] "Nəhl", 72

Başqa ayədə isə Allah buyurur:

هُوَ ٱلَّذِى خَلَقَكُم مِّن نَّفْسٍ وَٰحِدَةٍ وَجَعَلَ مِنْهَا زَوْجَهَا لِيَسْكُنَ إِلَيْهَا

**“Sizi tək bir candan xəlq edən, ünsiyyət bağlayıb rahatlıq tapsın deyə ondan onun zövcəsini yaradan Odur.”**[7]

Yəni, ailə həyatı qurmaq Uca Allahın insana bəxş etdiyi nemətlərdəndir.

Peyğəmbərimiz Muhəmməd ﷺ buyurmuşdur: ***“Dörd şey var ki, (həyatın) səadətindəndir: salehə qadın, geniş ev, yaxşı qonşu və rahat minik. Dörd şey isə məşəqqətdəndir: pis qonşu, pis həyat yoldaşı, dar ev və pis minik.”***[8]

Peyğəmbər ﷺ buyurmuşdur: ***“Dünya bir əyləncədir. Dünyanın xeyirli əyləncəsi salehə qadındır.”***[9]

Yəni, əməlisaleh həyat yoldaşı həyatın səadətindəndir.

Peyğəmbər ﷺ insanları ailə həyatı qurmağa həvəsləndirərək nəsihət etmiş və buyurmuşdur: “***Ey gənclər! Evlənməyə gücü çatan qoy evlənsin. Çünki evlilik gözü və cinsiyyət üzvünü daha yaxşı qoruyur. İmkanı olmayan oruc tutsun. Çünki oruc insanın şəhvətini soyudur.”***[10]

Hədisdə “gücü çatan”, yəni imkanı olan deyildikdə ailə külfətinin təmin edilməsi və insanın səhhətinin qaydasında olması nəzərdə tutulur. Evlənmək üçün zəngin olmaq şərt deyil, əsas odur ki, insan qurduğu ailəni vəziyyətinə müvafiq şəkildə

---

[7] “Əraf”, 189

[8] Səd bin Əbi Vaqqas rəvayət etmişdir. Səhih İbn Hibban, 4032. Xatib “Tarix Bağdad” 12/99. Şeyx əl-Albani “Səhih ət-Tərğib”, 2576. Səhihdir.

[9] Abdullah bin Amr rəvayət etmişdir. Müslim, 1467.

[10] Abdullah bin Məsud rəvayət etmişdir. Buxari, 5066. Müslim, 1400.

təmin edə bilsin. Ailə həyatında dinin və əxlaqın olması əsasdır. Əxlaqı gözəl olan mömінin ailə bağları da möhkəm və daimi olar. Hər bir insan bilməlidir ki, evləndikdən sonra onu qarşıda təbii olaraq həm xoş, həm də məşəqqətli anlar gözləyə bilər. Həyat yoldaşları xoş günlərdə aralarındakı hörməti, sadiqliyi qoruyub saxladıqları kimi, məşəqqətli anlarında da bir-birinə sadiq olmalı, bir-birilərinin sirlərini qorumalı və eyiblərini örtməlidirlər.

Ailə həyatında qadın və kişi bir-birinin örtüyüdür. Allah Təala buyurur:

هُنَّ لِبَاسٌ لَّكُمْ وَأَنتُمْ لِبَاسٌ لَّهُنَّ

**“Onlar *(qadınlar)* sizin üçün bir libas, siz də onlar üçün bir libassınız.”[11]**

İslam dini ailə həyatında kişiyə və qadına müəyyən haqlar vermişdir. Kişi və qadın bu haqlara riayət etməli, bir-birinin hüquqlarını ədalətli şəkildə qorumalıdırlar. Bu haqlardan biri odur ki, istər kişi, istərsə də qadın olsun, hər iki tərəf bir-birilərinin sirlərini qoruyub saxlamalı və bir-birilərinin eyiblərini örtməlidirlər. Bu haqda Peyğəmbər ﷺ buyurmuşdur: ***“Şübhəsiz ki, həyat yoldaşı ilə yaxınlıq etdikdən sonra, o sirri ifşa edən şəxs Qiyamət günü Allah dərgahında insanlar içərisində ən pis məqama sahib olacaq.”[12]***

Müslimin rəvayət etdiyi başqa bir hədisdə isə Peyğəmbər ﷺ buyurmuşdur:

[11] “Bəqərə”, 187
[12] Əbu Səid əl-Xudri rəvayət etmişdir. Müslim, 1437

***“Şübhəsiz ki, Qiyamət günü Allah yanında əmanətə xəyanətin ən böyüklərindən biri də, kişi qadını ilə, qadın da onunla arasındakı özəl əlaqənin sirrini sonradan ifşa etməsidir.”*[13]**

Kişi və qadının ailədaxili özəl məsələləri insanlar arasında danışıb ifşa etməsi haramdır, bir-birinə aid olan sirləri qoruyub saxlaması isə vacibdir. Allahdan qorxan təqvalı əməlisaleh kişi və qadın bir-birinin sirrini ifşa etməz.

Allah Təala əməlisaleh qadınları mədh edərək onların vəsfi haqqında buyurur:

فَٱلصَّٰلِحَٰتُ قَٰنِتَٰتٌ حَٰفِظَٰتٌ لِّلْغَيْبِ بِمَا حَفِظَ ٱللَّهُ

**“Əməlisaleh qadınlar Allaha itaət edər və qorunması lazım gələn şeyləri Allahın himayəsi sayəsində qoruyub saxlayarlar.”[14]**

Peyğəmbərin ﷺ hədisində də əməlisaleh qadın belə vəsf edilmişdir:

***Əbu Hureyranın (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə, Allah Rəsuluna ﷺ deyildi: “Hansı qadınlar xeyirlidir?” Peyğəmbər ﷺ dedi: “Yoldaşı ona nəzər yetirdikdə sevinən, buyurduqda ona itaət edən, yoldaşının xoşlamadığı bir şeyi özündə (irzində) və malında etməyəndir.”*[15]**

Əməlisaleh qadınlar Allaha və ərlərinə itaət edər, ərləri ilə aralarında olan gizli məsələləri, sirləri qoruyub saxlayarlar.

Ailə həyatında kişi və qadın arasında olan hörmət və sevgi qarşılıqlı olmalıdır. Bu baxımdan Peyğəmbər ﷺ ümmət üçün bir nümunədir. Buxari və Müslimin rəvayət etdiyi hədisdə

---

[13] Müslim, 1437

[14] “Nisə”, 34

[15] Nəsəi 3231. Əhməd 9658. Əhməd Şakir, əl-Albani isnadına “səhih” demişlər.

***Peyğəmbərdən ﷺ soruşuldu ki: "Ey Allahın Rəsulu! Sənə insanlardan ən sevmli olanı kimdir? (Cavabında həyat yoldaşı) "Aişə" (Allah ondan razı olsun) dedi.***"[16]

Hədisdən də görünür ki, Peyğəmbərimiz ﷺ öz həyat yoldaşını sevmiş və onun hörmətini daim saxlamışdır.

Tirmizinin və başqalarının da Aişədən (Allah ondan razı olsun) rəvayət etdiyi səhih bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: ***"Sizin ən xeyirliniz öz ailəsinə qarşı xeyirli olanınızdır. İçinizdə ailəsinə qarşı ən xeyirli olan mənəm."***[17]

Həqiqətən, Peyğəmbər ﷺ ən böyük əxlaq sahibi idi. Müsəlman kişi və qadınlar öz aralarında olan sədaqəti və hörməti qorumalıdırlar. İstər kişi, istərsə də qadın bir-birilərinə qarşı lütfkar olar, ədaləti qoruyar və bir-birinin haqlarına riayət edərlərsə, bu, onların dünyada xoşbəxt yaşamaları və Axirətdə uğur qazanmaları üçün ən böyük səbəblərdən olar.

İslam dini hər bir müsəlmanın daim təmiz və səliqəli olmasını tövsiyə etmişdir. Ailə həyatında müsəlman kişi və qadın bir-biriləri yanında mümkün qədər təmiz və səliqəli görünməyə diqqət yetirməlidirlər. Peyğəmbər ﷺ hər bir müsəlmanın gözəl və təmiz görünməsi haqda buyurmuşdur: ***"Həqiqətən, Allah qulu üzərində Öz nemətinin əsərini görməyi sevir."***[18]

Həmçinin, rəvayət edilir ki, Abdullah ibn Məsud belə demişdir: ***"Bir dəfə Peyğəmbər ﷺ dedi: "Qəlbində zərrə qədər təkəbbür olan kimsə Cənnətə girməz". Bu vaxt bir adam dedi: "Adam libasının və ayaqqabısının gözəl olmasını xoşlayır".***

[16] Buxari, 3662. Müslim, 2384.
[17] Tirmizi, 3895. Şeyx əl-Albani "səhih" demişdir.
[18] Tirmizi, 2819. Abdullah bin Amr. Səhihdir. Əhməd "Musnəd" 15/241. Əhməd Şakir "səhih" demişdir.

***Peyğəmbər buyurdu: “Allah gözəldir və gözəlliyi sevər. Təkəbbürlük isə haqqı danmaq və insanlara xor baxmaqdır”[19]***

Hədisdən də göründüyü kimi müsəlman səliqəli və gözəl görünməyə çalışmalı, lakin bu məsələdə təkəbbürə və riyakarlığa yol verməməlidir. Təkəbbürlülük haqqı inkar etmək və insanları təhqir etməkdir. Riyakarlıq isə ixlasın olmaması və Cənnətə girmək üçün ən böyük maneələrdəndir.

İslamda kişilərin qadınlar üzərində haqları olduğu kimi, qadınların da kişilər üzərində haqları vardır. Necə ki, Uca Allah buyurur:

وَلَهُنَّ مِثْلُ ٱلَّذِى عَلَيْهِنَّ بِٱلْمَعْرُوفِ

**“Kişilərin qadınlar üzərində şəriətə müvafiq haqları olduğu kimi, onların da kişilər üzərində haqları vardır”[20]**

Bu ayənin təfsirində İbn Abbas (Allah ondan və atasından razı olsun) demişdir: “Qadının mənim üçün bəzənməsini sevdiyim kimi, mən də onun üçün bəzənməyi sevirəm. Çünki Allah Təala bunu xatırladaraq deyir: **“Kişilərin qadınlar üzərində şəriətə müvafiq haqları olduğu kimi, onların da kişilər üzərində haqları vardır.”[21]**

Müslimin rəvayət etdiyi bir hədisdə möminlərin anası Aişə (Allah ondan razı olsun) deyir ki, Peyğəmbər ﷺ evinə daxil olduğu zaman misvakla[22] dişlərini təmizləməyə başlayardı.

---

[19] Müslim, 91. Abdullah bin Məsud.
[20] “Bəqərə”, 228
[21] Təfsir Təbəri
[22] Sivak və ya misvak Səudiyyə Ərəbistanında yetişən raak ağacının kökündən və ya budağından kəsilir. Xüsusən dişlərin təmizlənməsində istifadə olunur və sağlamlığa çox böyük faydaları var.

Peyğəmbərimiz Muhəmməd ﷺ təmizliyi, davranışı, həmçinin, istər ailəsi, istərsə də digər insanlarla müamələsi ilə ümmətə nümunə olan bir Allah Elçisidir. Hər bir müsəlman öz həyatında Muhəmməd Peyğəmbəri ﷺ örnək götürməli, onun buyurduqlarını yerinə yetirməli və qadağan etdiklərindən çəkinməlidir. Şübhəsiz ki, dünya və axirətdə səadətə nail olmaq Muhəmmədin ﷺ şəriətinə tabe olmaqladır. Necə ki, Allah Təala mübarək kitabında bu haqda buyurur:

قُلْ إِن كُنتُمْ تُحِبُّونَ ٱللَّهَ فَٱتَّبِعُونِى يُحْبِبْكُمُ ٱللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ ۗ وَٱللَّهُ غَفُورٌ رَّحِيمٌ

قُلْ أَطِيعُوا۟ ٱللَّهَ وَٱلرَّسُولَ ۖ فَإِن تَوَلَّوْا۟ فَإِنَّ ٱللَّهَ لَا يُحِبُّ ٱلْكَٰفِرِينَ

**De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir".**

**De: "Allaha və göndərdiyi Elçiyə itaət edin!" Əgər üz döndərərlərsə, şübhəsiz ki, Allah kafirləri sevməz."[23]**

Peyğəmbər ﷺ insanlara xitab edərək buyurur:

إِنَّ ٱللَّهَ رَبِّى وَرَبُّكُمْ فَٱعْبُدُوهُ ۗ هَٰذَا صِرَٰطٌ مُّسْتَقِيمٌ

***"Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Ona ibadət edin! Çünki bu, düz yoldur."[24]***

Başqa bir ayədə isə buyururlur:

وَأَطِيعُوا۟ ٱللَّهَ وَٱلرَّسُولَ لَعَلَّكُمْ تُرْحَمُونَ

**"Allaha və Peyğəmbərə itaət edin ki, bəlkə sizə rəhm olunsun."[25]**

---

[23] "Ali-İmran", 31-32
[24] "Ali-İmran" 51
[25] "Ali-İmran", 132

Nəhayət məqaləni bu ayə ilə tamamlamaq istəyirəm. Allah Cəllə və Ulə buyurur:

وَمَن يُطِعِ ٱللَّهَ وَٱلرَّسُولَ فَأُوْلَٰٓئِكَ مَعَ ٱلَّذِينَ أَنْعَمَ ٱللَّهُ عَلَيْهِم مِّنَ ٱلنَّبِيِّـۧنَ وَٱلصِّدِّيقِينَ وَٱلشُّهَدَآءِ وَٱلصَّٰلِحِينَ ۚ وَحَسُنَ أُوْلَٰٓئِكَ رَفِيقًا

**“Allaha və Onun Elçisinə itaət edənlər Allahın onlara nemət olaraq bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır.”**[26]

Allahın salavatı və salamı Peyğəmbərin ﷺ, ailəsinin, əshabının və onların ardınca gözəl şəkildə gedənlərin üzərinə olsun.

[26] “Nisə”, 69